Səh. 2 *"EVDƏ QAL", ACINDAN ÖL*

Səh. 3 *ƏN YAXŞISI ORTA YOLDUR*

Səh. 4 *MÜƏLLİMLƏRİN FƏNN İMTAHANLARININ VAXTLARI TƏSDİQLƏNİB*

Səh. 5 *2020-Cİ İLİN MİLLİ MÜƏLLİM MÜKAFATININ ONLUĞU MÜƏYYƏN OLUNUB*

Səh. 6 *ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV VƏ GÜRCÜSTAN*

Səh. 7 *İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA*

Səh. 7 *QİDA ZƏHƏRLƏNMƏSİ*

Səh. 8 *PREZİDENT BOLNİSİLİ VETERANLARI TƏBRİK EDİB*



İCTİMAİ QƏZET   *yeni_yol@mail.ru*   *იენი იოლი საზოგადოებრივი გაზეთი*   ***HAQQIN SÖZÜ – SÖZÜN HAQQI***

30 İYUN
2020-Cİ İL
№007 (111)

# Yeni YOL

*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*


## SEÇKİ MƏCƏLLƏSİNƏ DƏYİŞİKLİKLƏR EDİLƏCƏK



Parlament sədri Arçil Talakvadzenin bildirdiyinə görə, Gürcüstanın Seçki Məcəlləsinə koronavirus pandemiyası ilə bağlı dəyişikliklər ediləcək. Dəyişikliklərdə builki parlament seçkilərinin keçirilməsi üçün təhlükəsiz mühitin yaradılması nəzərdə tutulub.

Spiker deyib ki, sənəddə karantində olan şəxslərin səsvermə hüququndan istifadə, seçki məntəqəsində tibbi maskadan istifadə, əllərin dezinfeksiyaedici məhlulla yuyulması və digər təhlükəsizlik tədbirləri yer alacaq və bu qaydalar bir tərəfdən minimal olacaq, digər tərəfdən isə seçki hüqunundan istifadəni məhdudlaşdırmayacaq.

Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze, öz növbəsində, bildirib ki, ölkədəki cari epidemioloji vəziyyət parlament seçkilərinin vaxtında keçirilməsinə imkan verir.

Qeyd edək ki, parlament seçkiləri bu ilin oktyabr ayının 31-də keçiriləcək.

## GİORGİ QAXARİA: NATO GÜRCÜSTANIN TƏHLÜKƏSİZLİYİNİN ƏSAS ZƏMANƏTÇİSİDİR



"NATO Gürcüstanın strateji tərəfdaşı və ölkənin gələcək təhlükəsizliyinin əsas zəmanətçisidir". Bunu baş nazir Giorgi Qaxaria parlamentdə çıxışı zamanı deyib.

Hökumət başçısı bildirib ki, Gürcüstan NATO ilə bütün formatlarda əməkdaşlığı dərinləşdirməkdə davam edir və ölkənin sarsılmaz məqsədi NATO-ya tam üzvlükdür.

## GÜRCÜSTANDA KORONAVİRUSA YOLUXANLARIN SAYI 928-Ə ÇATIB




Hökumətin koronavirusla bağlı yaratdığı xüsusi rəsmi sayta (www.stopcov.ge) əsasən, Gürcüstanda koronavirusa yoluxanların sayı 928 nəfərə çatıb.

İndiyədək ölkədə koronavirusa yoluxanların 794-ü sağalıb, 15-i isə dünyasını dəyişib.

Hazırda ölkə üzrə karantində 2 809 nəfər, stasionar nəzarətdə isə 229 nəfər saxlanılır.

## XARİCİ İŞLƏR NAZİRİ: XARİCİ VƏTƏNDAŞLARIN GÜRCÜSTANA KEÇMƏLƏRİ BARƏDƏ YAYILAN MƏLUMATLAR YALANDIR



"Xarici vətəndaşların Gürcüstan sərhədlərini keçmələri barədə yayılan məlumatlar həqiqətə uyğun deyil". Bunu Gürcüstanın xarici işlər naziri David Zalkaliani bildirib.

Onun sözlərinə görə, sərhədi yalnız Gürcüstan vətəndaşları, ikili vətəndaşlığı olan şəxslər və onların ailə üzvləri keçə bilirlər.

Gürcüstanın daxili işlər naziri Vaxtanq Qomelauri də ölkənin bütün sərhədlərinin əcnəbilər üçün bağlı olduğunu bildirib.

Qeyd edək ki, Gürcüstan koronavirus pandemiyası səbəbindən martın 18-dən xarici vətəndaşlar üçün sərhədlərini bağlayıb.



# "EVDƏ QAL", ACINDAN ÖL

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**Karantin günlərində elə hadisələr baş verdi ki, qəzetimizin çapı dayandığına görə işıqlandıra bilmədik. Həmin hadisələr bölgəmizlə, xalqımızla, mədəniyyətimizlə birbaşa bağlı olduğu üçün yenidən diqqətinizə çatdırmaqda bir qəbahət görmürəm, əziz oxucu. Bilənlər bilir, bilməyənlər üçün qeyd edim ki, Tiflisdə fəaliyyət göstərən Azərbaycan Dövlət Dram Teatrının 11 nəfər işçisi yeni təyin edilmiş bədii rəhbər tərəfindən haqsız olaraq bir gündə işdən azad edildi. Həmin teatrın aktyoru kimi işdən çıxarıldığımı martın 25-i aldığım məktub vasitəsi ilə bildikdən sonra sosial şəbəkələrdə paylaşdığım "Evdə qal, acından öl" başlıqlı bu yazını internetə əli çatmayanları nəzərə alaraq yenidən tirajlayıram ki, bilməyənlərin də xəbəri olsun.**

Bütün ölkənin, hətta dünyanın ortaq bir dərdi olan koronavirusun hamını evində təcrid elədiyi, qorxu altında saxladığı bir gündə mənə də 11 ildir işlədiyim Tiflis teatrından məktub gəldi ki, işdən çıxarılmısan. Bu ağır gündə hakimiyyətin bu cür dəstəyi üçün Mədəniyyət Nazirliyinə "minnətdarlığımı" bildirirəm. Onsuz da pensiyadan 68 lari çox olan aylıq əmək haqqı (288 lari) heç yol xərclərimi görmürdü. Məni və Qardabanidən olan digər iki nəfər aktyor dostlarımı yol puluna işləməyə məcbur edən yalnız və yalnız teatra olan sevgi idi. Evdə təcrid olunmuş insanların çörək pulunu bu cür kəsərək "evdə qal" məsləhəti verənlər isə koronavirusdan daha betər, daha təhlükəlidirlər.

Amma və lakin əmək haqqımızı kəsməklə, işdən çıxarmaqla teatr sevgimizi heç vaxt nə öldürə, nə də əlimizdən ala bilərlər.

Fəaliyyətinə başlayan gündən bu günə kimi Tiflis teatrını ayaqda saxlayan, yaşadan, hər çətinliyə, şəraitsizliyə dözərək bu günə kimi gətirib çıxaran aktyorların işdən çıxarılması ilə bağlı kağıza imza atanlar bilsinlər ki, Tiflisdəki Azərbaycan teatrının bağlanmasına imza atmışlar. Bilsinlər ki, teatr kiminsə dədəsinin mülkü deyil, nə də kiməsə dədəsindən miras qalmayıb. Tiflisdə yerləşən, azərbaycanlılara aid yeganə mədəniyyət ocağı olan teatr Gürcüstanda yaşayan hər bir azərbaycanlınındır. Və onun taleyini də hansısa qondarma rəhbərlər deyil, elə xalq özü həll etməlidir. Görünür elə məqsəd də sapı özümüzdən olan paslı baltaları işə salmaqla teatrın fəaliyyətinə son qoymaq, Tiflisin ən gözəl yerində olan teatr binasının qapılarına qıfıl vuraraq ələ keçirməkdir. Çünki tearın canı aktyorlardır, aktyorları işdən çıxarmaq elə teatrın bağlanmasına fərman verməkdir.

Onsuz da başı bəlalı olan Tiflis teatrına həmişə aktyorların və digər işçilərin fikrini nəzərə almadan rəhbərlər təyin ediblər, hansıların ki işi Azərbaycan mədəniyyəti ilə məzələnməkdən başqa, pul yeməkdən başqa, nepotizmdən və yalan vədlər verməkdən başqa, "ayım gəlsin, günüm keçsin"dən başqa bir şey olmayıb. Həmişə də bu cür qanunsuzluqlara və ədalətsizliklərə qarşı etiraz etmişik. Amma bunlara baxmayaraq hər dəfə yenə öz "adam"larını rəhbər təyin ediblər. Sonuncu dəfə də bu cür oldu. Bircə fərq o oldu ki, bu dəfə milliyyətcə "azərbaycanlı" rəhbər təyin etdilər. Özümüzünküdür dedik, əl-ələ verdik işlədik, necə lazımdır dəstək durduq. Amma təəssüf. Bu, hamısından betər oldu.

Qoyduğu tamaşalar, daha doğrusu bərpa etdiyi tamaşalar (çünki bütün tamaşalar vaxtı ilə keçmiş bədii rəhbər Qoça Kapanadzenin hazırladığı tamaşalar idi), lap daha doğrusu aktyorların bərpa etdiyi tamaşaları öz adına çıxaraq nazirliyin və xəbəri olmayanların gözünə kül üfürməklə məşğul oldu. Yeni tamaşalar istədik, amma bunun üçün nə yaradıcı bacarığı, nə də istədadı imkan vermədi. Mənimlə bir uşaq tamaşasında ayı rolunu oynayan bu adam vəzifəyə MİNƏNDƏ telefonlarımıza cavab verməməyə, qış yuxusuna getməyə başladı. İşdən çıxarmaqla və nazirliklə hədələməyə başladı və sair və ilaxır. Yazılası çox şey var.

Və öz aramızdan olan, vaxtı ilə bizimlə eyni tamaşalarda rol alan Turqay Vəli-zadə etirazlara baxmayaraq özü istefa vermək əvəzinə təzə kreslosundan möhkəm yapışaraq ştatda olan bir aktrisadan başqa səkkiz peşəkar aktyoru və üç nəfər inzibati işçini işdən çıxardı. Bu isə teatrın fəaliyyətinə son deməkdir.

Ey əziz azərbaycanlılar, Borçalı türkləri, görün sizin mədəniyyətinizi kimlərin əlinə veriblər. Mədəniyyətinizə sahib çıxın. Bilirəm, çox şeylərdən xəbəriniz yoxdur, elə şeylər var burada yazmaq olmur. Amma bu qədər də biganə qalmaq yetər artıq. Bilirəm, bəlkə də bu ağır gündə heç hənanın yeri deyil, amma sabah gec olacaq və gələcək nəsil eyni səhvləri etdiyimizə görə gorumuzu söyəcək. Mən uzağı 288 lari itirirəm, siz isə, millət isə teatrını itirəcək.

## MALİYYƏ NAZİRİNİN MÜAVİNİ: PANDEMİYAYA GÖRƏ ÖLKƏYƏ 1 MİLYARD 800 MİLYON LARİDƏN ÇOX ZƏRƏR DƏYİB



Gürcüstanın maliyyə nazirinin müavini Giorgi Kakauridzenin parlamentdə komitə iclasında bildirdiyinə əsasən, "Gürcüstan koronavirus pandemiyasına görə 1 milyard 800 milyon laridən çox zərərlə üzləşib".

O deyib ki, ən böyük itki 1 milyard 545 milyon lariyə yaxın olmaqla vergi daxilolmaları ilə bağlıdır.

Nazir müavini pandemiya səbəbindən builki dövlət büdcəsinin 800 milyon lari azaldıldığını qeyd edib.

## BEYNƏLXALQ AVİAUÇUŞLARIN BƏRPASI MÜDDƏTİ UZADILDI




Beynəlxalq aviauçuşların həyata keçirilməsinə tətbiq edilmiş məhdudiyyət 31 iyul tarixinə qədər uzadıldı. Bu haqda Gürcüstanın Mülki Aviasiya Agentliyi məlumat yayıb.

"Uçuşların bərpası haqqında dünyada və Gürcüstanda yaranmış epidemioloji vəziyyəti nəzərə alaraq qərar qəbul olunacaq. Aviasiya sektoru üçün vəziyyətin çətin olmasından irəli gələrək qlobal səviyyədə davamlı olaraq sərhəd və səyahətlərlə bağlı məhdudiyyətlərin qaldırılması ilə bağlı qərarlar dəyişir.

Vətəndaşları uçuşların bərpa tarixi məlum olana və təsdiqlənmiş uçuşların qrafiki haqqında rəsmi mənbələrdən məlumat verilənə qədər hər hansı istiqamətdə bilet almaqdan çəkinməyə çağırırıq.

Beynəlxalq uçuşların bərpa olunmasına qədər bir neçə istiqamətdə nizamlı beynəlxalq reyslər davam edəcək. Uçuşların həyata keçirilməsinə icazə verilən kimi qeyd olunan uçuşlarla bağlı məlumat veriləcək", - deyə məlumatda bildirilib.

## GÜRCÜSTAN-RUSİYA SƏRHƏDİ AVQUST AYINDA AÇILA BİLƏR



"Gürcüstan Rusiya ilə quru sərhədi bu ilin avqustunda aça bilər". Bu barədə Gürcüstanın baş nazirinin Rusiya ilə münasibətlər üzrə xüsusi nümayəndəsi Zurab Abaşidze "İzvestiya" nəşrinə bildirib.

Onun sözlərinə görə, bu vaxta qədər Gürcüstan tərəfi Rusiya ilə birbaşa uçuşların bərpasına hazır olduğu barədə danışıb.

"Lakin pandemiyanın başa çatmadığı dövrdə, yəqin ki, bu barədə danışmaq tezdir. Vəziyyət imkan verən kimi Gürcüstan Rusiyaya birbaşa reysləri bərpa etməyə hazır olacaq. Lakin cavab Rusiyanın qərarından və epidemioloji vəziyyətdən asılı olacaq", - deyə Z.Abaşidze bildirib.

Qeyd edək ki, Rusiya Gürcüstanla birbaşa hava əlaqəsini ötən ilin iyulun 8-də dayandırıb. Gürcü ekspertlərin hesablamalarına əsasən, bu qərar ölkənin turizm sektoruna 1 milyard dollardan çox zərər vurub.

Koronavirus pandemiyasına görə Gürcüstan martın 18-dən sərhədlərini əcnəbilər üçün bağlayıb.

## TORPAQLAR ÖDƏNİŞSİZ QEYDİYYAT OLUNACAQ

Baş nazir Giorgi Qaxaria hökumətin iclasında bildirib ki, Gürcüstanda torpaq sahələrinin sistemli şəkildə qeydiyyatının yeni mərhələsi başlayır.

Onun sözlərinə görə, qeydiyyat ödənişsiz olacaq və torpaqların qeydiyyatının növbəti mərhələsi beş bələdiyyədə aparılacaq.

"Yeni mərhələ beş bələdiyyə – Tetritskaro (Ağbulaq), Qardabani, Kareli, Qori və Saqarecoya (Qaraçöp) aid olacaq. Bu olduqca vacib məsələdir, belə ki, 111 min hektar torpaq qeydiyyata alınacaq. Vətəndaşlarımız heç bir xərc çəkməyəcək. Ədliyyə Nazirliyi bu məsələni tam yoluna qoyacaq", - deyə G.Qaxaria bildirib.

## GÜRCÜSTANDA MÜHÜM SEÇKİ İSLAHATI – PARLAMENT KONSTİTUSİYAYA SEÇKİ SİSTEMİ ÜZRƏ DƏYİŞİKLİKLƏRİ QƏBUL EDİB



***Gürcüstan parlamenti 117 "lehinə", 3 "əleyhinə" səslə üçüncü oxunuşda konstitusiyaya dəyişiklik layihəsini qəbul edib. Dəyişikliklər yeni seçki sistemini təsdiqləyib. Bu o deməkdir ki, 2020-ci il oktyabrın 31-də parlament seçkiləri proporsionala yaxın sistem üzrə keçiriləcək.***

***Bu yolla seçki sxemini dəyişmək qərarı martın 8-də Gürcüstanda akkreditasiya olunan xarici diplomatların vasitəsilə hakimiyyətlə müxalifət arasında baş tutan danışıqlar nəticəsində əldə edilib. Yeni model seçki zamanı hakimiyyətlə rəqabət aparmaq üçün müxalifətə daha çox şans verir.***

Qəbul olunmuş dəyişikliklərə əsasən, yeni parlamentə 120 deputat partiya siyahıları üzrə, 30 deputat isə majoritar dairələr üzrə (əvvəlki 77 plyus 73 sistemi əvəzinə) seçiləcək.

**İkincisi,** partiyalar üçün 1 faizlik keçid baryeri müəyyən edilib.

**Üçüncüsü,** 40 faizdən az səs toplamış partiyalar və bloklar birpartiyalı əsasda hökumət formalaşdıra bilməyəcək.

Belə seçki modeli 2024-cü ilə qədər qüvvədə olacaq, bundan sonra isə parlament seçkiləri sırf proporsional sistem üzrə keçiriləcək.

Konstitusiya dəyişiklikləri prezident imzaladıqdan sonra qüvvəyə minəcək.

Səsvermədə iki böyük müxalif partiya – "Vahid Milli Hərəkat" və "Avropalı Gürcüstan" iştirak etməyib. Əslində seçki sisteminin dəyişməsini tələb edən də elə bu partiyalar idi.

Onlar səsverməni boykot ediblər və bildiriblər ki, hakimiyyət martın 8-də əldə edilən razılaşmaya tam əməl etməyib. Onların sözlərinə görə, razılaşmanın ikinci maddəsi siyasi məhbusların – Tbilisinin eks-meri Qiqi Uqulava, keçmiş müdafiə naziri İrakli Okruaşvili və müxalif "Mtvari arxi" ("Əsas kanal") telekanalının təsisçilərindən biri Giorgi Ruruanın azad edilməsi olub.

Səsvermə gününə qədər (29 iyun) Rurua azad edilməyib, buna görə də "Vahid Milli Hərəkat" və "Avropalı Gürcüstan" səsvermədə iştirak etməyib.

Bununla belə medianın tarixi adlandırdığı 8 mart razılaşması ilə uzun aylar sürən daxili siyasi böhran başa çatıb.

Seçki sisteminin dəyişdirilməsi majoritar dairələrdə müxalifətin heç vaxt hakimiyyətin namizədləri ilə rəqabət apara bilməməsi ilə şərtləndirilib. İqtidar nümayəndələri bir qayda olaraq opponentlərinin sahib olmadığı inzibati və digər bütün resurslardan yararlanırdılar.

Hər seçkilərdən öncə müxalifət uğur qazanacağı təqdirdə demokratiya və ədalət naminə majoritar tərkibdən tam imtina etməyi vəd edib, amma uğur qazanandan sonra heç kim bu dəyişikliyi etməyə tələsməyib. 2012-ci il parlament seçkilərində qələbə qazanan "Gürcü arzusu" da bu baxımdan istisna olmayıb, amma səkkiz ildən sonra müxalifətin və cəmiyyətin təzyiqi altında güzəştə getməli olub.

*Mənbə: jam-news.net*

## ƏN YAXŞISI ORTA YOLDUR



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Bu gün insanlar yanlış olan iki yoldan, yəni ifrat (normadan çox) və ya təfritdən (normadan az) birini tutmaqdadırlar. Əslində isə Allah və Peyğəmbər ifratdan və təfritdən uzaq olub orta yolu tutmağımızı tövsiyə edirlər. İfrat da, təfrit də pisdir. Haqq orta yoldadır. Dilimizdə ifrat və təfriti tam olaraq izah edən bir söz olmadığından biz ifratı həddindən artıq, təfriti isə həddindən az olaraq qeyd edəcəyik. Bu ikisinin ortasına isə ərəbcədə vasat deyilir ki, biz də buna orta yol deyəcəyik.

Hər işdə ifrat və təfritdən uzaq olub orta yolu tutmaq lazımdır. Hədisi-şəriflərdə bu mövzuda belə buyurulur:

"İfrat və təfritdən uzaq durun" (Buxari), "Həddindən artıq gedən həlak olar" (Müslim), "İşlərin ən yaxşısı orta olanıdır" (Deyləmi, Beyhaki).

"Elm əməldən üstündür. Əməlin üstünü də orta yolda olmaqdır. Allah-təalanın dini ifrat və təfrit arasındadır. İkisinin ortası sırati müstəqim, yəni doğru yoldur" (Beyhaki).

Demək ki, orta ifrat və təfritdən uzaq olmaq deməkdir. İslamiyyət orta yollu bir dindir. Qurani-Kərimdə buyurulur ki: "Beləliklə, biz sizi orta bir ümmət etdik ki, siz insanlara şahid olasınız, peyğəmbər də sizə şahid olsun..." (Bəqərə, 143).

Orta yol deyincə, iki şey aydın olar: 1) Bir şeyin tam ortası. 2) nisbi, təqdiri orta olmaqdır, yəni müəyyən bir şeyin ortasıdır. Əxlaq məlumatında istifadə edilən bu ikinci ortadır. Bunun üçün yaxşı xasiyyət hər kəsə görə fərqli olar. Hətta zamana və məkana görə də dəyişər. Birində gözəl olan bir xasiyyət, başqasında yaxşı olmaya bilər. Bir zamanda yaxşı deyilən bir xasiyyət, başqa zamanda yaxşı olmaya bilər. O halda yaxşı xasiyyət tam ortada olmaq deyil, ortalamada olmaqdır. Pis xasiyyət də bu ortalamanın iki tərəfinə ayrılmaqdır. Yaxşı xasiyyətlərin hamısı orta (ortalama) miqdarlardır. Hər birinin ifrat və təfriti bir pis xasiyyət olar.

Dünya ilə axirətini birlikdə icra edə bilən adam, orta yolda gedənlərdəndir. Dünya işlərində də, orta yol üzrə olmaq, adamın izzət və şərəfini artırar.

Xəsislik təfrit, israf isə ifratdır. Comərdlik isə orta yoldur.

Tənbəllik təfritdir, tələsmək isə ifratdır. Tənbəllik indi edilməsi lazım olan bir işi gecikdirmək, daha sonraya buraxmaq deməkdir. Tələsərək və düşünmədən o işi etmək isə ifratdır. Tələsəndə zəiflik və bezginlik hasil olar. Xeyirli bir işin olması üçün tələsən, gecikincə, bezginliyə, ümidsizliyə düşər. Dua edər, dərhal duasının qəbul olmasını istəyər. Duası gecikincə duanı buraxar, istəyindən məhrum qalar.

Bəzi şeylərin istisnası olduğu kimi, tələsməyin də istisnası vardır. Bəzi yerlərdə tələsmək sünnədir.

İnsan bir şeyə hirslənə bilər. Bunun da ifratı və təfriti vardır. Hirsin həddindən artıq olmasına təcavüzkarlıq deyilir. Təcavüzkar kimsə hiddətli olar, özünə və başqasına zərər verər, bu hal da küfrə apara bilər.

Bir kimsəni həddindən artıq sevib bütün sirlərini ona vermək ifratdır. Yoldaşına sevgisini ifadə etməmək, hər şeyini ondan gizləmək də təfritdir. Düşmənlikdə həddindən artıq getmək ifratdır. Dostluqda da, düşmənlikdə də həddindən artıq gedilməməlidir. Sevgidə irəli gedib müxtəlif sirlərimizi versək, irəlidə aramız açılınca peşman olarıq. İncik olduğumuz kimsəyə də düşmənlikdə irəli gedilməməlidir. Bəlkə bir gün dost olar və söylədiklərimizdən, etdiklərimizdən utanarıq.

Hər işin ifrat və təfriti olar. Müsəlman orta, yəni etidallı olmalı, həddindən artıqdan uzaq dayanmalıdır. İbadətləri orta miqdarda etməlidir. Bəzən görürsən ki, ibadətlərdə həddindən artıq davrananlar olur və başqalarını da belə olmağa məcbur edirlər. Abdülqəni Nablüsi həzrətləri Hadika kitabında mövzu ilə əlaqəli olaraq buyurur: "İbadətləri nə az, nə də çox həddindən artıq olmayaraq, orta miqdarda etmək lazımdır". Bəqərə surəsinin 185-ci ayəsində: "Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir", buyurulur. Bunun üçün xəstənin və yolçunun oruc tutmamasına icazə verildi. Bizə ağır və çətin işlər etməyi əmr etmədi. İnsan iki işdən birini edəcəyi zaman bunlardan yüngül və asan olanını etməsi daha doğrudur. Peyğəmbər əfəndimiz birinin məsciddə saatlarla namaz qıldığını eşitdi. Məscidə gəlib, onu çiyinlərindən tutaraq: "Allah-təala bu ümmətdən asan işlər etməsini istəyir. Güc işləri bəyənmir" buyurdu. Allah-təala bu ümmətə asan şeyləri əmr etdi. Hədisi şərifdə: "Allah-təala əmr etdiyi şeyləri etmənizi sevdiyi kimi, icazə verdiyi şeyləri etmənizi də sevər" buyurulur. Zərurət olduğu zaman haram işləməyə və fərzi tərk etməyə sənəd, icazə verilmişdir, yəni əzab edilməz. Zərurət zamanında da dinin əmrlərini etməyə əzimət deyilir. Bəzən əzimət olanı etmək daha yaxşıdır. Məsələn, ölüm ilə qorxudulan kimsənin, imanını gizləməməsi belədir. Öldürülsə, şəhid olar. Bəzən sənəd olanı etmək, daha yaxşı olar. Yolçunun oruc tutmaması belədir. Yolçu orucu tutaraq xəstələnər, ölsə günaha girər".

# TƏCRÜBƏÇİ MÜƏLLİMLƏR İMTAHANI PAYIZDA VERƏCƏKLƏR

Təhsil Nazirliyindən verilən məlumata görə, Müəllimlərin Peşəkar İnkişafı və Karyerada İrəliləyişi Sxeminə dəyişikliklər edilib.

Dəyişikliklərə əsasən, təcrübəçi müəllimlərin imtahanları təxirə salınır və payızda Milli Qiymətləndirmə və İmtahan Mərkəzi tərəfindən keçiriləcək.

Dəyişikliklər xüsusi müəllimlərə də təsir edir. Bu gündən etibarən xüsusi müəllimlər Müəllimlərin Peşəkar İnkişafı və Karyerada İrəliləyişi Sxeminə rəsmi olaraq cəlb ediləcək və onlara təcrübəçi müəllim statusu veriləcək.

Sxemdəki dəyişikliklərə görə:

• Müəllimlər imtahanı üçün 30 aprel 2020-ci il tarixinə qədər qeydiyyatdan keçən təcrübəçi müəllimlərin imtahanı təxirə salınır və 2020-ci ilin payızında müvafiq fənn və/və ya peşə bacarığı imtahanını vermək imkanı verilir;

• Fənn və peşə bacarıqları imtahanını verən və statuslarını qaldırmaq üçün 1-5 kredit bala ehtiyacı olan təcrübəçi müəllimlər fənn və/və ya peşə bacarıqları üzrə tədris modulundan keçmək və 1-5 kredit balı toplayaraq ballarını 19 kredit bala qədər çatdırmaq hüququna malikdirlər;

• Fənn və ya peşə bacarıqları imtahanını 2020-ci ilin payızında verə bilməyən təcrübəçi müəllimlərlə bağlanan əmək müqaviləsinin müddətini məktəb rəhbərliyi 2020-2021 tədris ilinin sonuna qədər uzadacaq;

• Müəllim statusu almaq istəyənlərə dəstək olmaq üçün nazirlik 2020-ci ilin 30 aprelinədək qeydiyyatdan keçmiş müəllimlərə və sistemə daxil olmaq istəyənlərə 22-30 iyul 2020-ci il tarixlərində keçiriləcək imtahanda iştirak etmək imkanı verir;

• İmtahan verənlərin təhlükəsizliyini təmin etmək üçün Səhiyyə Nazirliyinin hazırladığı bütün tövsiyələrə əməl olunacaq. Test imtahanı günün ilk yarısında bir seansda aparılacaq;

• İmtahan mərkəzləri aşağıdakı şəhərlərdə açılacaq: Batumi, Poti, Zuqdidi, Ozurgeti, Kutaisi, Axaltsixe, Qori, Tbilisi, Rustavi, Telavi. Hər bir imtahan mərkəzində ilkin tibbi yardım avadanlığı ilə təchiz olunmuş tibb məntəqəsi olacaq. Mərkəzlərin yaxınlığına təcili yardım, xilasetmə xidməti və patrul polisi səfərbər olunacaq. 2020-ci ildə 12000-dək müəllim imtahan prosesində iştirak edəcək.

# KOMİTƏ SƏDRİ: MÜƏLLİMLƏRİN ƏMƏK HAQQI İLƏ BAĞLI HEÇ BİR TƏHLÜKƏ YOXDUR



Təhsil büdcəsinin təxminən 127 milyon lari azalmasına baxmayaraq heç bir layihə dayandırılmır, müəllimlərin əmək haqqı ilə bağlı təhlükə yoxdur, ancaq pandemiyadan irəli gələrək, baxaq nə necə olacaq – "etaloni.ge" ilə söhbəti zamanı Parlamentin təhsil, elm və mədəniyyət komitəsinin sədri Qenadi Marqvelaşvili bildirib.

"Bildiyimə görə, təhsil infrastrukturu proqramında 20,4 milyon lari azalır, bunun 19 milyonu ümumi təhsildən, 1 milyonu isə peşə təhsilindən azalacaq. İdman istiqamətində isə əksinə, büdcə artır. Çünki bu il olduqca vacib tədbirlər planlaşdırılıb. Heç bir layihə dayandırılmır. Koronavirusa görə müvəqqəti olaraq təxirə salınan tədbirlər var.

Dəqiq deyə bilərəm ki, ümumi təhsildən məktəblərin nəqliyyatla təmin edilməsi istiqamətində 12,3 milyon məbləğ azad oldu", - Qenadi Marqvelaşvili deyib.

Bəs dəyişikliklər müəllimlərin əmək haqqına təsir göstərəcəkmi və sentyabrda onların əmək haqqı planlaşdırılan qrafikə uyğun olaraq artırılacaqmı?

"Müəllimlərin əmək haqqı ilə bağlı heç bir halda təhlükə olmayacaq. Qalanları isə pandemiyadan irəli gələrək, baxaq, nə necə olacaq", - deyə komitə sədri bildirib.

2020-2021-ci tədris ilinin müəllim və direktorların tələbinə əsasən sentyabrın 1-də başlaması mümkündürmü və belə olarsa şagirdlərin məktəbə qəbulu üçün yaş həddi dəyişəcəkmi sualına Q.Marqvelaşvili belə cavab verib:

"Bəzi qaydalar var ki, parlament qəbul edir və bəzi qaydalar birbaşa nazirlik tərəfindən tənzimlənir. Biz başqa istiqamətlərdə davamlı olaraq işləyirik. Bir neçə qanun layihəsi var ki, indi bu haqda danışmaq istəmirəm. Amma çalışırıq və həmin layihələr sürətləndirilmiş qaydada müzakirə oluna bilər. Baxmayaraq ki, bu formada müzakirə olunmasını alqışlamıram, amma çıxılmaz vəziyyətlər var və bəzən tezləşdirilmiş müzakirəyə ehtiyac yaranır.

Təhsilin 1 sentyabrda başlaması ilə əlaqədar heç nə deyə bilmərəm, bu haqda ilk dəfə sizdən eşitdim".

# MÜƏLLİMLƏRİN FƏNN İMTAHANLARININ VAXTLARI TƏSDİQLƏNİB

***Müəllim olmaq istəyənlər üçün imtahanlar 22 iyul tarixində başlayacaq və 30 iyulda başa çatacaq.***

**22 iyul:**

*Gürcü dili və ədəbiyyatı, riyaziyyat, təbiətşünaslıq (I-IV);*
*Gürcü dili və ədəbiyyatı (başlanğıc pillə);*
*Təbiətşünaslıq (başlanğıc pillə);*
*Riyaziyyat (başlanğıc pillə).*

**23 iyul:**

*Fizika (baza və ya orta pillə);*
*Kimya (baza və ya orta pillə);*
*Tətbiqi və təsviri incəsənət;*
*İdman;*
*Gürcü dili və ədəbiyyatı (baza və ya orta pillə).*

**24 iyul:**

*Riyaziyyat (baza və ya orta pillə);*
*Biologiya (baza və ya orta pillə);*
*Coğrafiya (baza və ya orta pillə);*
*Musiqi.*

**27 iyul:**

*Tarix (baza və ya orta pillə);*
*Vətəndaş təhsili (baza və ya orta pillə);*
*İnformasiya və kommunikasiya texnologiyaları (yazı hissəsi).*

**28 iyul:**

*İnformasiya və kommunikasiya texnologiyaları (praktiki hissə).*

**29 iyul:**

*İngilis dili (başlanğıc, baza yaxud orta pillə) – yazı hissəsi;*
*Alman dili (başlanğıc, baza yaxud orta pillə) – yazı hissəsi;*
*Fransız dili (başlanğıc, baza yaxud orta pillə) – yazı hissəsi;*
*Rus dili (başlanğıc, baza yaxud orta pillə) – yazı hissəsi;*
*Gürcü dili ikinci dil kimi (başlanğıc, baza yaxud orta pillə) – yazı hissəsi.*

**30 iyul:**

*İngilis dili (başlanğıc, baza yaxud orta pillə) – praktiki hissə;*
*Rus dili (başlanğıc, baza yaxud orta pillə) – praktiki hissə;*
*Alman dili (başlanğıc, baza yaxud orta pillə) – praktiki hissə;*
*Fransız dili (başlanğıc, baza yaxud orta pillə) – praktiki hissə;*
*Gürcü dili ikinci dil kimi (başlanğıc, baza yaxud orta pillə) – praktiki hissə.*

# MARNEULİDƏ PEŞƏ KOLLECİ TİKİLİR

Marneuli bələdiyyəsinin yaydığı məlumata əsasən, Marneulidə peşə kollecinin inşası prosesi davam etdirilir.

150 tələbə üçün nəzərdə tutulmuş və müasir standartlara cavab verəcək bina məhdud imkanlı şəxslər üçün də uyğunlaşdırılıb. Binada auditoriyalar, konfrans zalı, kitabxana, lift və uyğunlaşdırılmış vanna otaqları olacaq.

Bina müvafiq avadanlıqlarla, mərkəzi istilik və havalandırma sistemi ilə təchiz ediləcək. Təlim binası ilə yanaşı, təhsil müəssisəsinin həyəti və açıq idman meydançası da olacaq.

Tikinti işləri ilə Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, Təhsil,elm, mədəniyyət və idman nazirinin müavini Tamar Kitiaşvili, Marneuli bələdiyyəsinin icra başçısı Zaur Dargallı və digər şəxslər yerində tanış olublar.

Qeyd edək ki, Kvemo Kartlidə peşə təhsili üzrə bir dövlət müəssisəsi – Rustavi şəhərində yerləşən "Modus" kolleci fəaliyyət göstərir. Marneulidə inşa edilən təhsil müəssisəsi bu kollecin filialı olacaq və bölgədə peşə təhsili əldə etmək imkanını əhəmiyyətli dərəcədə artıracaq.

Layihə Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin maliyyə dəstəyi və yerli özünüidarəetmənin iştirakı ilə həyata keçirilir. Peşə məktəbi 2021-ci ildə fəaliyyətə başlayacaq və əsasən Marneuli, Qardabani, Dmanisi, Bolnisi, Tetritskaro və Tsalka bələdiyyələri üçün nəzərdə tutulacaq.

## 80 000 ŞAGİRD DİSTANT TƏHSİLƏ QOŞULA BİLMƏYİB



Dünyada pandemiya elan olunduğuna görə distant təhsilə (məsafədən təhsil) keçid Gürcüstanın təhsil sistemi üçün ciddi problemə çevrildi. Ancaq müəllimlərin sonsuz əməyi və şagird-valideynlərin yüksək məsuliyyətinin köməyi ilə bu vəziyyətdən layiqli şəkildə çıxdıq. Baxmayaraq ki, təhsil prosesi sentyabra qədər bərpa olunmayacaq, milli tədris planına uyğun olan çox iş yerinə yetirildi. Uşaqlar da az-çox onlayn təhsilə qoşuldular. Ancaq müəyyən subyektiv və obyektiv problemlərə görə bu proseslərdən kənar qalan bəzi şagird kateqoriyası var: bəzisinin interneti, bəzisinin isə müvafiq texnikası yoxdur.

"Etaloni.ge"yə təhsil sahəsinin bir neçə nümayəndəsindən məlum olub ki, distant təhsildən kənar qalan şagirdlərin sayı təxminən 80 000-dir və bu rəqəm heç də az deyil.

"Təhsil Nazirliyinin məlumatı var və bilir ki, 80 000 şagird təhsildən kənar qalıb. Ancaq nazirin böhrana qarşı olan planının təqdimatında bu haqda heç nə deyilməyib. Heç nazirlik tərəfindən də indiki mərhələdə hansısa mexanizm hazırlanmayıb ki, həmin şagirdlərin geri qalması necə aradan qaldırılacaq. Məktəblər yay dövründən istifadə edə və şagirdlərlə oxşar materialları keçə bilərlər. Çünki nazirlik rəsmi olaraq heç bir məlumat vermir və həmin şagirdlərin sayının azaldılması haqqında da söhbət açılmır", - deyə ekspertlərdən biri qeyd edib.

Heç nəyi təsdiq etmirik və bu rəqəmin nə dərəcədə real olduğunu dəqiq demək olduqca çətin olar. Ancaq verilən məlumata görə, belə çıxır ki, məhz 80 minə yaxın uşaq lazımi bilgi almayıb, vəziyyətə uyğunlaşa bilməyib və sentyabrdan məktəbə qayıdan 80 000 uşaq müstəqil şəkildə yeni materialların öhdəsindən gələ bilməyəcək.

Ümid edirik ki, Təhsil Nazirliyi təhsil proqramından geri qalmış onlarla uşağın kənarda qalmaması üçün müəyyən mexanizm hazırlayacaq. Onsuz da təhsilin keyfiyyətinə çox sayda qeydlər bildirilir və bunlara distant təhsildən kənarda qalan 80 000 şagird də əlavə olsa ölkəmiz üçün faciəyə çevrilər.

## 2020-Cİ İLİN MİLLİ MÜƏLLİM MÜKAFATININ ONLUĞU MÜƏYYƏN OLUNUB



2020-ci ilin Milli Müəllim Mükafatının onluğu müəyyən olunub. Oktyabr ayında bu onluqdan Gürcüstanın ən yaxşı müəllimi seçilərək elan olunacaq və mükafat olaraq 10 min lari ilə təltif ediləcək. Finalçılar isə bunlardır:

1. Tsitsino Qobadze – Tsalka bələdiyyəsinin Qumbati kənd ictimai məktəbinin Gürcü dili və ədəbiyyatı müəllimi.
2. Sopio Qoqoxia – Abxaziyanın 10 saylı ictimai məktəbinin Tətbiqi və təsviri incəsənət, Gürcü dili və ədəbiyyatı müəllimi.
3. Salome Qoçoleişvili – Bolnisi bələdiyyəsinin Kvemo-Arkevani kənd ictimai məktəbinin Gürcü dili ikinci dil kimi fənni üzrə müəllim.
4. Natela Davitaia – Senaki bələdiyyəsinin Müqəddəs Aleksi Şuşania adına provoslav məktəb-gimnaziyasının Tarix müəllimi.
5. İvane Didebeli – Orbeti ictimai məktəbi və "Axali taoba" (Yeni nəsil) özəl məktəbin İngilis dili müəllimi.
6. Marine Vartumaşvili – Qori şəhərinin 12 saylı ictimai məktəbinin Coğrafiya müəllimi.
7. Ana Kintsuraşvili – Tbilisinin "Koral" özəl məktəbinin Riyaziyyat müəllimi.
8. Marine Porçxidze – Revaz Mumladze adına Zestafoni şəhər 7 saylı ictimai məktəbinin İngilis dili müəllimi.
9. Teona Şerazadişvili – Oni bələdiyyəsinin Kari və Simon Sxirdladze adına Oni şəhər ictimai məktəbinin Gürcü dili və ədəbiyyatı müəllimi.
10. Elza Xarşiladze – Saçxere bələdiyyəsinin Niqvzari ictimai məktəbinin Fizika müəllimi.

Milli Müəllim Mükafatı Təhsil Koalisiyası və Müəllimlərin Peşəkar İnkişafı Milli Mərkəzinin təşəbbüsü ilə veriləcək. Müsabiqə Gürcüstanda artıq dördüncü dəfə keçirilir və müəllimliyin məşhurlaşdırılmasına istiqamətlənmiş "The Global Teacher Prize" kampaniyasının bir hissəsidir.

## İNFEKSİONİSTİN TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN 16 TÖVSİYƏSİ

**Sentyabrda təhsil müəssisələri açılmalıdırmı? – İnfeksionist Maia Budzaşvilinin sözlərinə görə, bu suala cavab vermək hələ tezdir. Mütəxəssis Dünya Səhiyyə Təşkilatına istinadən mövcud durumla bağlı məktəblərə 16 tövsiyə verir:**

*"Sentyabrda təhsil müəssisələri açılmalıdırmı? – Bunu indiki mərhələdə planlaşdırmaq mümkün deyil. Qarşıda üç ay var və ölkədə epidemioloji vəziyyətin necə olacağını heç kim bilmir. Ancaq az-çox stabil vəziyyət olarsa, əlbəttə məktəblər açılmalıdır.*

*Dünya Səhiyyə Təşkilatı Covid-19 pandemiyası dövründə təhsil müəssisələrinin açılması və şagirdlərin məktəblərə qayıtması ilə bağlı tövsiyələr yayımlayıb. Həmin tövsiyələrə və mövcud təcrübəyə istinadən nəzərə ala bilərik:*

1) Təhsil müəssisələri maksimum dərəcədə dezinfeksiya vasitələri ilə təchiz olunmalıdır. Girişlərdə dezinfeksiya məhlulu əlçatan olmalıdır.

2) Əl yumaq və qurulamaq üçün vacib infrastruktur təmin edilməlidir. Təəssüf ki, bizim məktəblərdə/bağçalarda/universitetlərdə tualet çox hallarda tənqidə səbəb olur. Ona görə də infrastrukturun qaydaya salınması koronavirus olmadan da başqa infeksiya xəstəliklərinin qarşısının alınması üçün vacibdir.

3) Davamlı şəkildə səthlərin dezinfeksiyası həyata keçirilməlidir (Məktəblər açılanda bunun real əhəmiyyəti olacaq. Yoxsa ki, bizdə bu, bir az qəribə oldu – təhsil müəssisələri bağlandıqdan sonra dezinfeksiya işləri aparıldı. Həmin vaxt orada uşaqlar olmadığına görə bunun heç bir mənası yox idi).

4) Yenə də əsas tövsiyə məsafə saxlamaqla bağlıdır. Belə ki, partalar arasında məsafə minimum 1 metr olmalıdır.

5) Həmçinin imkan daxilində günün bir hissəsində şagirdlərin sayının az olması, beləliklə də məsafə saxlamağın daha da asanlaşması üçün dəyişiklik etmək olar. Bizdə bu baxımdan müxtəlif təhsil müəssisələrinə qarşı fərdi yanaşmalar mümkündür. Əgər təhsil müəssisəsi kiçikdirsə və tələbələrin/şagirdlərin sayı azdırsa, o zaman işləmək asan olacaq. Bu bizim kəndlərimizdə tez-tez baş verir. Kəndlərdə isə uşaqların məktəbə qayıtması daha vacibdir. Çünki şəhərlə müqayisədə kəndlərdə internet və kompüter problemi var. Ona görə də bəzi kəndlərdə məktəbin açılması çox asan olacaq. Həm də, güman ki, həmin uşaqlar bir-biri ilə təmasdadır.

6) Dünya Səhiyyə Təşkilatının tövsiyələrindən biri, məsələn, məktəb yeməkxanalarının işlədilməsindən çəkinməkdir. Orada infeksiyaya yoluxma riski sinifdəkindən yüksəkdir. Tövsiyə edirlər ki, uşaqlar evdən gətirdikləri qidanı sinifdə, parta arxasında yesinlər.

7) Müxtəlif dərslərdə müxtəlif otaqlara keçən şagirdlərə tövsiyə edilir ki, bir otaqda qalmaq rejiminə keçsinlər ki, başqa sinif şagirdləri ilə təmasda olmaq səviyyəsi azalsın. Ali təhsil müəssisələri üçün də həmin tövsiyələrə əməl etmək yersiz olmazdı.

8) Müxtəlif xroniki xəstəliklərə görə problemi olan şagirdlərin valideynləri/müəllimi xüsusən ehtiyatlı olmalıdırlar.

9) Tövsiyələrdən birində qeyd olunur ki, uşaqların məktəbə gətirilib-aparılmasında yaşlı nənə və babalar iştirak etməsinlər. Onlar öz uşaqları və digər uşaqlarla daha az təmasda olmalıdırlar. Ümumiyyətlə, yaşlılarla təmasın azaldılması ən vacib tədbirlərdən biridir.

10) Əgər məktəbdə nəqliyyat xidmət göstərirsə uşaqlar arasında məsafə qorunmalıdır. Bunun üçün əlavə nəqliyyata ehtiyac yarana bilər.

11) Termoskrininq təhsil müəssisələrində də aktualdır.

12) Dünya Səhiyyə Təşkilatı tövsiyə edir ki, təhsil müəssisələri xəstəlik haqqında arayış tələb etməyi ləğv etməlidir ki, bu, vəziyyəti pis olan şagirdin/tələbənin iştirakına mane olmasın.

13) Otaqlar maksimum dərəcədə tez-tez havalandırılmalıdır.

14) Əgər məktəbdə şərait varsa dərslərin bayırda, açıq sahədə keçirilməsinə stimul verilsin.

15) Sosial və idman fəallıqları azaldılsın (bizim şagirdlərin bu kimi riski onsuz da azdır. İdman dərsləri uzun zamandır ləğv olunub).

16) Əlbəttə, mümkün olan qədər yenə onlayn dərs sistemindən istifadə olunsun. Məsələn, bəzi ölkələrdə laboratoriya/nümayiş tipli dərsləri yerində, nəzəri dərsləri isə onlayn rejimdə keçirlər.

- Bütün hallarda fərdi yanaşma və yerli konteksti nəzərə almaq vacibdir.

- Məsələni yüngülləşdirməməliyik və bildirməliyik ki, bütün şagirdlər/tələbələr evdə qalsın və onlayn təhsil alsınlar. Bunu uzun müddət etmək mümkün deyil. Təhsilin keyfiyyətinə, uşaqların/gənclərin psixikasına mənfi təsir göstərəcək. Mənim fikrimcə hamı razılaşar ki, onlayn təhsil ciddi şəkildə keyfiyyəti pisləşdirir.

- Bu tövsiyələri nəzərə almaq başqa infeksiya xəstəlikləri zamanı da çox faydalı olar. Əsasən uşaqlarda koronavirusdan daha ağır nəticə verən qripə yoluxma halında faydalıdır. Bu virusla bağlı uşaqlarda infeksiya profilaktikasının əsas məqsədi yenə də yaşlı adamlara koronavirus keçməsi halının aradan qaldırılması cəhdidir və bu olduqca ciddi məqsəddir".

*Rubrikanı hazırladı: Aynurə ƏLİYEVA*

# ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV VƏ GÜRCÜSTAN



*(əvvəli ötən sayda)*

1918-ci ilin 26 may tarixində Gürcüstan Milli Şurası (GMŞ) tərəfindən Gürcüstanın müstəqilliyi elan olunduqdan sonra Əbdürrəhim bəy Haqvediyev siyasi-ictimai fəaliyyətini yenidən Tiflisdə davam etdirir. O, burada həmin ilin yayında radikal solçu Əliheydər Qarayevin sədrliyi ilə təsis edilmiş Gürcüstan Müsəlmanları Milli Şurasının (GMMŞ) rəhbər heyətində təmsil olunur, eyni zamanda Türk Dram Cəmiyyətini yaradaraq ona sədrlik edir və GMMŞ-nin təsis etdiyi müsəlman yüksək pillə ibtidai məktəbində inspektor vəzifəsində pedaqoji fəaliyyətlə məşğul olur.

Yeni yaradılmış Gürcüstan (Demokratik) Respublikasında parlament funksiyasını həyata keçirən GMŞ-də qəbul edilmiş 13 sentyabr 1918-ci il tarixli qanunla milli azlıqların nümayəndələrinə bu ilk qanunverici orqanda təmsilçilik kvotaları ayrılırdı; bu çərçivədə Azərbaycan türklərinə 4 yer ayrılmışdı. Qanuna görə, sözügedən kvotalar milli azlıqların Gürcüstan ərazisində fəaliyyət göstərən milli şuralarının nümayəndələri hesabına doldurulmalı idi. Buna uyğun olaraq, 29 sentyabr 1918-ci ildə Tiflisdə toplanan GMMŞ Əliheydər Qarayev, Əbdürrəhim Haqverdiyev, Əbdüləziz Şərifov (tanınmış ədəbiyyatşünas-alim *Əziz Şərif*) və Mirzə Hüseyn Həsənzadəyə parlamentdə təmsilçilik mandatını verir. Mandat qazanmış şəxslərin heç biri əslən Gürcüstan türklərindən olmasalar da, hansısa şəkildə Tiflis və ya Borçalı ictimai-siyasi və ədəbi-ziyalı mühiti ilə bağlılıqları var idi. "Qruziya" qəzeti 10 oktyabr 1918-ci il tarixli sayında "Gürcüstan parlamentində müsəlmanlar" başlığı altında onların qısa tərcümeyi-halını dərc edirdi:

- *Haqverdiyev Əbdürrəhim bəy* – Şuşa qəzasının yerli kiçik zadəganlarındandır. Natamam orta təhsil almışdır. Rusiya I Dövlət Dumasına deputat seçilmiş və Duma buraxılandan sonra Vıborq bəyannaməsini imzalamamışdır. "Nadejda" ("Ümid") sığorta cəmiyyətində, sonra isə H.Z.Tağıyevin gəmiçilik şirkətində işləmiş və oradan məşhur mühəndis Behbudovun işi ilə əlaqədar çıxarılmışdır. Daha sonra, əsasən, "Molla Nəsrəddin" yumoristik jurnalı ilə əməkdaşlıq edərək jurnalistika ilə məşğul olmuşdur. İnqilabın (1917-ci ilin oktyabr çevrilişinin – F.V-H., N.V.-H.) ilk günlərində şəhərlər ittifaqında xidmət edə-edə müsəlmanların ictimai işlərində iştirak etmişdir. Sonra Zaqatalaya qəza komissarı təyin olunmuşdur, ancaq yerli müsəlman əhali onu qəbul etməmişdir. Sonradan Borçalı qəzasına eyni vəzifəyə təyin edilmişdir. "Müsavat" partiyasından Zaqafqaziya Seyminə namizəd olmuşdur. Borçalı qəzasının komissarı vəzifəsindən azad olunduqdan sonra "Hümmət" sosial-demokrat partiyasının sıralarına daxil olmuşdur;

- *Şərifov Ə.* – Moskva Kommersiya İnstitutunun 2-ci kurs tələbəsi. Tiflisdə 1 saylı gimnaziyanın şagirdi olmuş, oradan kommersiya məktəbinə keçmişdir. İnqilabın əvvəlində sosialist kimi çıxış etməyə başlamışdır. "Gələcək" adlı partiya mətbu orqanının redaktorlarından biridir;

- *Həsənzadə M. H.* – Qori Müəllimlər İnstitutunda-Seminariyasında təhsil almışdır. Tiflis ibtidai məktəblərində müəllim işləmişdir. Eyni zamanda Zaqafqaziya Şiə Ruhani İdarəsinin katibinin köməkçisi vəzifəsini tutmuşdur. İnqilaba qədər cənab A.İ.Xatisov (1910-1917-ci illərdə Tiflis şəhərinin erməni əsilli başçısı – F.V.-H., N.V.-H.) tərəfindən dəfələrlə müsəlmanların nümayəndəsi olaraq dəvət olunmuşdur. Bütün qeyd olunan vəzifələrlə bərabər, yeni dumada (Tiflis şəhər duması nəzərdə tutulur – F.V-H., N.V.-H.) tərcüməçi vəzifəsində çalışmışdır;




- *Qarayev Ə.* – Vətəndaş yetkinliyi yaşına yeni çatmışdır. Birinci kurs tələbəsidir. Dürüst və ideoloji "hümmətçi"lərdən hesab olunur. Gənc olduğu üçün elə bir xüsusi ictimai xidməti olmayıbdır.

Qeyd edək ki, Ə.Haqverdiyevin "Qruziya"da dərc olunmuş tərcümeyi-halında müəyyən qeyri-dəqiqliklər var. Xüsusən onun partiya mənsubiyyəti ilə bağlı verilən bilgilərin həqiqəti əks etdirmədiyini elə həmin qəzetin səhifələrində Əbdürrəhim bəyin onu tez-tez siyasi mövqeyini dəyişməkdə ittiham edən yazıçı həmkarı Eynəli bəy Sultanova verdiyi cavabda görmək olur. Rusdilli mətbuatda çox zaman "Musulmanin" ("Müsəlman") imzası ilə çıxış edən E.Sultanov bu imza altında "Qruziya" qəzetində çap etdirdiyi ""Hümmət" partiyasının yeni üzvü" başlıqlı məqaləsində yazırdı:

"Bizə verilən məlumatlara görə, Tiflis müsəlman sosial-demokratlarının "Hümmət" partiyası müsəlman yazıçı-dramaturqu Əbdürrəhim bəy Haqverdiyevin simasında yeni üzv əldə edibdir. Cənab Haqverdiyev Qafqazın digər xalqlarının birinci dərəcəli yazıçıları ilə eyni sıraya qoyula bilməz, ancaq Azərbaycan müsəlmanları arasında o, az-çox görkəmlidir, çünki ondan istedadda geri qalmayan Azərbaycan dramaturqu N.Vəzirov çoxdandır yazmağı dayandırıb, müsəlman dramının digər müəllifləri kütləsi isə həddən artıq görünməyən ölçüdədirlər.

Buna görə də cənab Haqverdiyevin (bəlkə o, bizim onu "yoldaş" adlandırmağımızı arzu edir) bu və ya digər partiyaya mənsubiyyətinin müsəlmanların ziyalı dairələrinə aidiyyatı var, elə bunun əsasında biz yerli müsəlmanların həyatında baş vermiş belə bir hadisəyə diqqət ayırırıq.

Bizə bəlli olduğu qədər, cənab Haqverdiyev rus inqilabının ilk günlərindən müsəlman ziyalıların digər bütün ali təbəqələri kimi "Müsavat" partiyasına qoşulmuşdu. O, indi də Azərbaycan hökumətinin nümayəndələri ilə öz əlaqələrini tam olaraq kəsməmişdir. Necə və hansı səbəbə o, indi Azərbaycanın əleyhdarlarının düşərgəsinə keçibdir?

Biz cənab Haqvediyevdən qeyd olunan məsələ ilə bağlı dərc olunmuş şəkildə izah və cavab tələb edirik. Əks halda həm də "müsəlman yazıçısı" adlandırıla biləcək bizim yeganə dramaturqumuzun siyasi görüşlərinin "külək əsən səmtə" dəyişdiyini bilmək məcburiyyətində qalacağıq. Kədərlidir".

"Musulmanin"ə cavabında Ə.Haqvediyev ümumiyyətlə heç bir siyasi partiyanın üzvü olmadığını vurğulayırdı:

"Bununla bəyan edirəm ki, heç zaman "Müsavat" partiyasının üzvü olmamışam və deyiləm. Zaqafqaziya Seyminə mənim namizədliyim "Müsavat" partiyası tərəfindən deyil, onun bitərəf qanadı (Zaqafqaziya Mərkəzi Müsəlman Komitəsindən olan partiyasızlar qrupu – F.V-H., N.V.-H.) tərəfindən irəli sürülmüşdü. Əksinə, mənim namizədliyim "Müsavat" partiyası tərəfindən təpki ilə qarşılanmış və adım ön sıralardan çıxarılıb onuncu sıraya salınmışdı.

"Hümmət" partiyasının da üzvü deyiləm. Doğrudur, "Hümmət" partiyasının nəşrlərində iştirak edirəm, ancaq mənim iştirakım yalnız partiyanın proqramı ilə ümumi heç bir şeyi olmayan ədəbi məzmunlu məqalələrlə məhdudlaşır.

Mən heç zaman heç bir partiyanın üzvü olmamışam və parlamentə daxil olanda da özümü bitərəf elan etmişəm.

Yekun olaraq bildirirəm: Mən həmişə solçu sosialist partiyalara rəğbət bəsləmişəm və indi də bəsləyirəm, çünki öz xalqımın xoşbəxtliyini onların proqramının icrasında görürəm".

Əlavə edək ki, həmin dövrün gürcü mətbuatında da Ə.Haqverdiyevin "Hümmət"in üzvü olduğu barədə yanlış qeydlərlə qarşılaşmaq mümkündür.



Gürcüstan (Demokratik) Respublikasının parlamentində milli azlıqların nümayəndələrinin dövlət dilini bilmək məcburiyyəti və öhdəliyi olmasa da, Ə. Qarayev deputat seçilməsindən təqribən bir ay sonra gürcü dilini bilməməsini əsas gətirərək parlament rəhbərliyinə istefa ərizəsi ilə müraciət edir. Ə. Qarayevin ərizəsi Parlamentin 5 noyabr 1918-ci il tarixli iclasında dinlənilir və qəbul olunur. Bundan sonra siyasi fəaliyyətini artıq Bakıda davam etdirən Ə.Qarayevi Gürcüstan Müsəlmanları Milli Şurasının sədri vəzifəsində Əbdürrəhim bəy Haqverdiyev əvəz edir.

Beləliklə, Azərbaycan türkləri Gürcüstan parlamentində 3 nəfərlə (Ə.Haqverdiyev, Ə.Şərifov, M.H.Həsənzadə) təmsil olunurlar. Stenoqrafik hesabatlardan bəlli olur ki, Ə.Haqverdiyev parlament iclaslarında aktiv iştirak edərək mühüm ümumölkə əhəmiyyətli məsələlərdə siyasi mövqe ortaya qoymaqdan çəkinmir və təmsilçisi olduğu toplumun, əsasən, təhsil sahəsində üzləşdiyi problemləri mütəmadən qaldırırdı.

*(davamı gələn sayda)*

**Fəxri VALEHOĞLU-HACILAR,**
*tarix üzrə elmlər doktoru*
**Namiq VALEHOĞLU-HACILAR**
*Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi*

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## TİFLİS NAMİNƏ

*(əvvəli ötən sayda)*

Qəddar Ağa Məhəmməd şah Qacarın yanına bir gözəl əsir qadını aparırlar. Əri döyüş zamanı həlak olubmuş. Südəmər uşağı düşmənlər ananın gözü qarşısında daşa çırpıb öldürürlər. Ananın özünü isə gözəllik xilas edir. Bu qadını hədiyyə olaraq şaha aparırlar. "Mənə lazım deyil! Kimdir bunun alıcısı?" – Sərt baxışla xacə şah buyurdu. Qadını hansısa varlı Cəfər bəy aldı. Narınqala adlanan qəsrə apardı. Cəfər bəy qadına buyurdu, müsəlmanlığı qəbul et, mənim xasam (məşuqə-M.M.) ol. Qadın heç bir cavab vermədi. Fikrə qərq oldu. Sonra Cəfər bəyin əlinin içinə baxdı və ovucunun cizgiləri mənə deyir ki, alnına bu gecə öz xəncərinlə ölüm yazılıb, dedi. Qadın Cəfər bəydən xəncəri rica etdi. Dua edəcəyəm, xatadan-baladan olacaqsan. Ölüm başından rədd olacaq (Müsəlmanlar inanırlar ki, gürcü qadınları silaha dua oxumağı bilirlər). Cəfər bəy xəncəri belindən açdı və qadına verdi. Qadın əvvəlcə dua etdi, sonra xəncərin ucunu ürəyinin başına qoydu və Cəfər bəyə dedi ki, xəncərin dəstəyinə əlini vur və əmin olacaqsan ki, yaralanmayacağam. Cəfər bəy xahişi yerinə yetirdi və... Əsir qadın məyus halda hakimin ayaqları önünə sərildi" (Потто: "Памятники времен утверждения русского владычества на Кавказе», Вып. 1, Тифлис, 1906-ci il, səh.74; Belə bir əfsanəni Akaki özünün "Başı açıq" əsərində göstərmişdir).

Bu əfsanə Narınqalaya məxsusdur.

Necə bir kədərləndirici haldır ki, Tiflisin keçmişi barədə əcnəbi orientalistlər bizə, Tiflisin ab-havası ilə böyüyənlərə nisbətən daha çox bilirlər!

Heç bir təqdirdə, əgər keçmişi öyrənsək, müasir Tiflis belə qüsursuz əks olunmayıb.

Bizim tarixi səhlənkarlığımız.

Nümunə üçün kiçik kuryoz:

Tiflisdə səhər

...Dağın zirvəsindən sürüşüb gəldi şüa,

Günəş torpağa qızıl şəfəqlərini yaydı.

Dağın qoltuğunadək sərin meh gedib çatdı

Və dənizdə qu quşları pırıldaşdılar.

Bu şeiri əcnəbi oxusa, güman ki, xəritədə axtarışa başlayacaq – Tiflis hansı dənizin sahilində yerləşir.

Tiflis şairlər üçün ilhamverici mövzudur. Lakin mövzunun dolğunlaşdırılması üçün təkcə başlıq bəs etmir ki!

Tiflisi mədh etmək üçün iti intuisiya və tənqidin dostakar (cərrah-M.M.) skalpeli lazımdır ki, şair "bizim diyarı" düzgün çalarlarla rövnəqləndirsin.

***

Tiflisin dar küçələrini bir neçə səyyah görüb, lakin evə qayıdan zaman demək olar ki, hamıda himi dağılmış evin yatağının (divarı-M.M.) köndələninə əyildiyi qaranlıq küçələrdən, ortalıqda "Qaraçoxeli Beranjenin" oxuduğu daha artıq xatirə və təəssürat qalır:

- Ey xabardiyalı ( Xabardiyalı don geniş don idi ki, ətəyi də məftil dairə ilə düzəldilmişdi-M.M.) qadın,

Varındır, ona sevinirsən" -

Və o Narınqalanın qədim bürcləri özünün mamırlanmış dağıntılarında çoxlu əfsanələr qoruyub saxlayır. Bir sözlə, bu "Азиатская часть Тифлиса" Avropalaşdırılmış geniş küçələrə və daş arakəsmələrə nisbətən onların memuarlarına daha çox material verir.

Bertelsin fikrincə, Qərbin saldığı ləngidici mərkəzlər Qərbdə mövcud deyildir? (E. Бертельс: "Персидский театр", "Академия" nəşriyyatı, Ленинград, 1924-cü il, səh. 21). Buna görə də, şərqli camaat intensiv olaraq sevinci də yaşayır, kədəri də.

Qədim Tiflis bunun bariz nümunəsidir.

Qədim Tiflis!

Elə uşaqlıq vaxtlarından onu sevirdim. Günəşli dumana bürünmüş Narınqala qalasının tarixi qalığı dərin sirr kimi mənim önümdə dayanmışdı. Mənim poetik fantaziyamı və arzuların saf məhəbbətini yalnız şeirin qamışlığında həbs etdim. Uzun müddət qəlbimin niyyətinin yerinə yetirilməsini istəyirdim: Qədim Tiflisin mahiyyətini tarixi olaraq öyrənmək.

Sayat-Nova dövrünün tədqiqatı mənə o qədər material verdi ki, elə həmin an bəzi şeyləri tədarük etmək qərarına gəldim.

Sayat-Novadan qoparılan mövzu olaraq bu kitab mənim bu janr yaradıcılığında ikinci sahədir. "Sayat-Nova"nı 18-ci əsrin hüdudları ilə məhdudlaşdırdım. Bu kitabı yalnız ondoqquzuncu əsrin ikinci yarısının xalq şairlərinə aid etdim. İlia və Akakinin zamanında paralel olaraq aşağı təbəqələrdə fəaliyyət göstərən xalq şairlərinə (Bu "sənətkarlar" eynilə "muşələr" (fəhlələr) idilər, bu sözün müasir anlamı ilə. Onda "muşa" sözündən, bilmirəm hansı anlama görə, ya heç istifadə etmirdilər, ya da əgər istifadə edirdilərsə, o da nadir hallarda. "Muşa" palanla yük daşıyan adlanırdı. İlk dəfə xalq tamaşalarının verilməsinə başlanılanda (1893-cü il) səhnə həvəskarları muşələr nizamnamə tərtib etdilər ki, bu da "səhnə həvəskarları olan sənətkarların yoldaşlığı" adlanırdı (Bax. "Xalq evi" yubiley məcmuəsi, 1923-cü il, səh. VI).

Çoxu elə fikirləşir ki, xalq ədəbiyyatı yalnız kəndlərdə qorunub saxlanılır. Şəhərdə də vardır. Öyrənmək, üzərə çıxarmaq, buna isə fədakarlıq lazımdır. Biz "şəhər" olaraq Tiflisi nəzərdə tuturuq... "İveriya" yazırdı: "Tarixi şan-şöhrət Tiflisin adını o qədər məşhurlaşdırdı ki, o bu gün də hər bir gürcünün gözündə yeganə şəhərdir – xatırlamadan da duyulan və anlanılandır. Kutaisi də şəhərdir, Tiflisə nisbətən daha qədim. Lakin gürcü ki, deyir: "şəhərə gedirəm", "şəhərdə idim" və "şəhərdən gəlirəm", hansısa başqa şəhəri deyil, yalnız Tiflisi nəzərdə tutur ("İveriya", 1900-cu il, №208). Evidenbaum da belə bir fikir söyləmişdir: "Если в разговоре упоминается о Калаки, то всякий без обьяснений понимает, что речь идет о Тифлисе» ("Путеводитель по Кавказу», 1888-ci il, səh. 304).

"Xalq ədəbiyyatı" dedikdə çox vaxt müəllifi naməlum olan, itkin düşən yaradıcılığı nəzərdə tuturlar. Lakin mənim fikrimcə, xalqın övladının ürəyindən süzülüb gələn, kosmetikasız, özünün primitiv siması ilə və müəllif də bizim üçün az və ya çox məlum olan bu yaradıcılıq da "xalq yaradıcılığı" adlanır.

Ədəbiyyat təkcə klassiklərdən ibarət deyildir.

Ədəbiyyatı təkcə böyük adlarla özümüzünkü edə bilmərik.

Dəniz təkcə böyük çayları deyil, eləcə də kiçik dağ çaylarını öz ürəyində yığır və sorur. Hər bir çayla tanışlıq mənbədən başlayır. Bu mənbə çox hallarda harasa atılıb, həmişə axtarılmalı olub.

Bu cür estetik səyahəti mən də ərk etdim... İstəyirəm göz önündə naməlum guşəni və "şəhər xalq poeziyası" adlandırdığımız və akademik ədəbiyyatın təlatümlü dalğalarında nəzərə çarpmadan gizlənən alagözlü dağ çayının unudulan mənbəyini sərgiləyim.

*(davamı gələn sayda)*

***Gürcü dilindən tərcümə: Mirzə Məmmədoğlu***

# QİDA ZƏHƏRLƏNMƏSİ



İsə Xəmmədov
khamedovisa0@gmail.com

Yay aylarında daha çox insan qida zəhərlənməsi diaqnozu ilə həkimlərə müraciət edir. Səbəbi isə bir sıra faktorlardan ibarətdir.

- Yay mövsümündə niyə qida zəhərlənmələrinin sayı artır?

- Birinci növbədə iqlim şəraitinə görə. Biz bilirik ki, hava hərarəti çox olduqda müəyyən patogen mikrobların da inkişafının çoxalma sürəti artır. Buna görə də yay aylarında qida zəhərlənmələrinin sayı çoxalır. Eyni zamanda yayda bəzi mövsüm xarakterli məhsullar, məsələn, meyvə-tərəvəz çox yeyilir. Bu da müəyyən səbəblərə görə zəhərlənmələrin sayını artırır.

- Zəhərlənmə halları əsasən nədən baş verir?

- Əsas zəhərlənmə səbəbləri qida məhsullarının düzgün saxlanılmamasından baş verir. Soyuq zəncirin pozulması, istehsal tarixi ötmüş malların qəbulu, dondurma, müəyyən ət məhsulları, məsələn, dönər kimi qidaların yay zamanı saxlanılma müddəti çox az olur. Qidaların düzgün şəraitdə saxlanılmaması da əsas səbəblərdəndir. Bu da qida zəhərlənmələrinə yol açır.

Yay aylarında qarpızdan zəhərlənmələr tez-tez baş verir. Çox vaxt insanlar düşünürlər ki, qarpızdan zəhərləniblər. Bu halların 99 faizi qarpızdan və ya qarpızın tərkibindəki nitratlardan, başqa kimyəvi maddələrdən də baş verir. Bilirik ki, qarpız ağacda yox, torpaqda bitir və satışa veriləndə açıq yerlərdə saxlanılır. Çox zaman qarpızı yumadan kəsirlər. Bu zaman onun tərkibinə mikroblar daxil olur. Bir neçə saatdan sonra həmin mikroblar, patogenlər orada inkişaf edir. Beləliklə, qarpızı yedikdən sonra zəhərlənmə əlamətləri başlayır – ürəkbulanma, qusma, hərarət və s. İnsanlar belə hallarda qarpızdan zəhərləndiklərini düşünürlər. Lakin bu, qida toksikoinfeksiyasıdır.

- Zəhərlənmə əlamətləri necədir?

- İlk növbədə bilmək lazımdır ki, qida zəhərlənməsi üçün bəzi hallarda inkubasiya dövrü bir neçə saat olur. Yəni səhər bir süd məhsulu yeməklə özünüzdə ümumi zəiflik, halsızlıq, ürəkbulanması, qusma, ishal və bədən hərarətinin qalxmasını hiss edəcəksiniz.

- Zəhərlənmə müşahidə olunarkən ilkin yardım kimi nə etmək lazımdır?

- Birinci növbədə çalışmaq lazımdır ki, mədə-bağırsaq yuyulması (çoxlu miqdarda sodalı ya marqanisli su içmək), bağırsağı təmizləyici imalə etmək. Əgər bu mümkün olmazsa, hər 10 kq bədən çəkisinə 1 tablet olmaqla kömür dərman vasitəsini əzib 1 stəkan suya qatıb içmək lazımdır. Bunu içməklə toksinlərin qana keçməsinin və zəhərlənmənin inkişafının qarşısı alınır. Lakin əgər artıq zəhərlənmə inkişaf etmişsə, onu ev şəraitində müalicə etmək məsləhət deyil. Çünki çox pis ağırlaşmalar baş verə bilər. Təzyiq düşməsi, infeksion toksiki, xəstə şok keçirə bilər, başqa insanlara xəstəlik yoluxa bilər və s.

- Qida zəhərlənmələri neçə növ olur və ən ağırı hansıdır?

- Ən ağır növ kimi ən çox ölüm halları rast gəlinən botulizm hesab olunur. Botulizm düzgün şəraitdə hazırlanmamış konservlərdən olur. Və anaerob şəraitində, yəni oksigen olmayan şəraitdə həmin botulotoksin əmələ gəlir və insanda botulizm adlı xəstəlik baş verir. Başqa ağır qida zəhərlənmələrindən taun xəstəliyini deyə bilərik. Çox nadir hallarda buna rast gəlinir. Qalan qida zəhərlənmələri adətən stafilokok və s. kimi mikrob törədici xəstəliklərdir. Və bunlar da yüngül, ağır və orta keçə bilər.

Son olaraq onu demək istəyirəm ki, sağlamlığınızın keşiyində dayanın!

İCTİMAİ QƏZET yeni_yol@mail.ru ივნი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 İYUN 2020-Cİ İL №007 (111)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## ATİF ABBASOVUN ROMANI TÜRKİYƏDƏ ÇAP OLUNUB

Gənc yazar Atif Abbasovun "Ümidlərin vətəni" adlı romanı Türkiyədə işıq üzü görüb. Türkiyə türkcəsində yazılmış roman "Zengin Yayıncılık" nəşriyyatında çap olunub.




A.Abbasovun "Yeni YOL"a verdiyi məlumata görə, romandakı hadisələr 1987-2016-cı illəri əhatə edir. Əsərin baş qəhrəmanı Əli əslən Borçalıdandır. Sovet ordusunda rütbəli zabit olaraq Əfqanıstanda döyüşür, müharibə bitdikdə Rusiyaya gedir. Rusiyada qalmaq təklifi alsa da Əli orada qala bilmir, Gürcüstan və Azərbaycanın müstəqillik məsələsi onun vətənə dönməsinə səbəb olur.

Əli Borçalıya dönür və nişanlısı Nigarla evlənir, ancaq Qarabağda ermənilərin azərbaycanlılara qarşı törətdiyi qətlyamlara görə o burada qala bilmir və soydaşlarına yardıma gedir. Qarabağ uğrunda döyüşür və yaralanır. Müharibə bitdikdən sonra Borçalıya qayıdan Əli növbəti müharibənin iştirakçısı olur. Cənubi Osetiyada vətən torpaqları uğrunda qəhrəmancasına döyüşərək şəhid olur.

Qeyd edək ki, "Ümidlərin vətəni" yazıçının üçüncü kitabıdır. Atif Abbasov 1989-cu ildə Marneulidə doğulub. Ali təhsilini Türkiyədə, Kocaeli Universitetinin Beynəlxalq əlaqələr fakültəsində alıb, həmçinin Sakarya Universitetinin magistraturasını bitirib.

## GÜRCÜSTANIN MİNERAL SULAR İXRAC ETDİYİ 10 ÖLKƏ

Gürcüstandan ixrac edilən mineral və yeraltı suların 41,3%-i Rusiyanın payına düşür. 2020-ci ilin yanvar-may aylarında Rusiyaya 17,701 milyon dollar dəyərində 31 082 ton su ixrac edilib. Bu, ötən ilin analoji dövrü ilə müqayisədə 31,2% azdır.



2019-cu ilin 5 ayı ərzində Gürcüstan Rusiyaya 25,751 milyon dollar dəyərində mineral və yeraltı su satıb. Ümumi hesabda isə, Gürcüstanın Statistika Xidmətinin məlumatına görə, 2020-ci ilin yanvar-may aylarında mineral və yeraltı suların ixracı 20,3% azalıb. Belə ki, 2020-ci ilin 5 ayı ərzində 42,842 milyon dollar, 2019-cu ilin analoji dövründə isə 53,778 milyon dollar dəyərində su ixrac edilib.

Gürcüstandan 30 ölkəyə mineral və yeraltı sular ixrac olunur. 2020-ci ilin yanvar-may aylarında qeyd olunan məhsulun ən çox ixrac edildiyi 10 ölkə isə aşağıdakılardır:

- Rusiya – 17,705 milyon dollar (31 082 ton);
- Ukrayna – 8,330 milyon dollar (18 951 ton);
- Litva – 7,16 milyon dollar (12 084 ton);
- Bolqarıstan – 2,847 milyon dollar (5 674 ton);
- Qazaxıstan – 2,431 milyon dollar (3 986 ton);
- Özbəkistan – 848,3 min dollar (1 119 ton);
- Amerika – 762,2 min dollar (943 ton);
- Azərbaycan – 552,2 min dollar (1 493 ton);
- İsrail – 489,4 min dollar (726,6 ton);
- Moldova – 424,6 min dollar (559,5 ton).

*Mənbə: bpn.ge*

## PREZİDENT BOLNİSİLİ VETERANLARI TƏBRİK EDİB



Prezident Salome Zurabişvili Böyük Vətən müharibəsinin iki azərbaycanlı veteranı – Camal Qasım oğlu və Ənvər Hüseynovu təbrik edib.

Müharibə iştirakçılarına dövlət başçısının təbrikini Bolnisi bələdiyyəsinin rəhbəri David Şerazadişvili və majoritar deputat Qogi Meşveliani çatdırıblar.

Hər iki veterana faşizm üzərində qələbənin 75-ci ildönümü ilə bağlı yubiley medalı da təqdim olunub.

## ÖLKƏDƏ 101 TİBB İŞÇİSİ KORONAVİRUSA YOLUXUB



Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin yaydığı məlumata əsasən, Gürcüstanda 101 nəfər tibb işçisi koronavirusa yoluxub, onlardan 1-i dünyasını dəyişib.

Məlumatda bildirilib ki, COVID-19-a yoluxanların 58%-i tibb bacısı, 31%-i həkim, 10%-i isə kiçik tibb işçiləridir.

Virusa yoluxan tibb işçilərinin yaş həddi 19-72 təşkil edir. Onların 84%-i qadındır.

## AÇIQ HAVADA BƏZİ TƏDBİRLƏRİN KEÇİRİLMƏSİNƏ İCAZƏ VERİLİB



Hökumətin qərarına əsasən, açıq havada bəzi tədbirlərin keçirilməsinə icazə verilib. Açıq havada seminar və treninqlər, istənilən əyləncəli oyunlara qoyulan qadağa götürülüb.

Həmçinin raftinq, su polosu, digər hava və yerüstü əyləncəli idman oyunlarının keçirilməsi də bərpa olunur.

Açıq havada planlaşdırılan bütün tədbirlər Səhiyyə Nazirliyinin müvafiq tövsiyələrinə əsasən təşkil olunacaq.

## BOLNİSİNİN DƏLLƏR KƏNDİNDƏ KARANTİN REJİMİ LƏĞV OLUNUR

Hökumətin qərarına əsasən, iyulun 6-da Bolnisi rayonunun Muşevani (Dəllər) kəndində sərt karantin rejimi ləğv olunacaq.




Kənddə koronavirusa son yoluxma halı iyunun 20-də qeydə alınıb.

Qeyd edək ki, Dəllər kəndində sərt karantin rejimi aprel ayının 25-dən tətbiq olunub. Məlumata əsasən, kənddə 80 nəfər COVID-19-a yoluxub.

Təsisçi: "Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım Direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayılmır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.